Azərbaycan Yazıçılarının XI Qurultayı qarşısında

Yaradıcılıq müşavirəsi:
uşaq ədəbiyyatı

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda növbəti yaradıcılıq müşavirəsi fevralın 4-də keçirildi. Yazıçılar Birliyinin qarşıdakı XI Qurultayı ərəfəsində milli söz sənətinin təhlil və təbliği məqsədilə təşkil edilən silsilə tədbirlərin davamı kimi düşünülmüş bu ədəbi-mədəni toplantı çağdaş uşaq ədəbiyyatımızın son altı ildəki durumuna həsr olunmuşdu.

Ədəbi-mədəni ictimaiyyətin — yazıçı və şairlərin, ədəbiyyatşünasların, tənqidçilərin, kitabxanaçıların və jurnalistlərin toplaşdığı məclisi Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar açdı. Yaradıcılıq müşavirəsinin milli söz sənətimizin çox aktual və vacib bir qolunun — çağdaş uşaq ədəbiyyatının son illərdəki durumuna, uğur və problemlərinə həsr olunduğunu xatırladan Anar "Müasir uşaq ədəbiyyatının problemləri" mövzusunda çıxış etmək üçün sözü "Pərvanə" Ədəbi Məclisinin sədri, şair Qəşəm Nəcəfzadəyə verdi (məruzə ixtisarla bugünkü sayımızda verilir, məruzələrin bütöv mətni AYB-nin dərgilərində gedəcəkdir).

Azərbaycan Yazıçılar Birliyinin uşaq ədəbiyyatı seksiyasının rəhbəri, yazıçı-dramaturq Əli Səmədli maraqlı məruzəyə görə Q.Nəcəfzadəyə təşəkkürü etdi, problemlə bağlı mülahizələrini məclis iştirakçıları ilə bölüşdü. Uşaq ədəbiyyatının spesifik bir yaradıcılıq növü olduğunu vurğulayan Ə.Səmədli bu sahənin həmişə dövlət qayğısına ehtiyac duyduğunu dedi.

Ədəbiyyatşünas alim, "Göyərçin" uşaq dərgisinin baş redaktoru, yazıçı Rafiq Yusifoğlu məruzəçinin zəhmətini qiymətləndirdi, tənqidi mülahizələrini söylədi. Uşaq ədəbiyyatına dair bir sıra kitab və dərsliklərin müəllifi kimi R.Yusifoğlu Q.Nəcəfzadənin məruzəsindəki sistemsizlikdən gileyləndi: "Uşaq ədəbiyyatının predmeti, məqsədi olmalıdır. Məruzə problemlər, mövzular ətrafında qurulsaydı, daha sanballı, dəyərli alınardı." Şair Kələntər Kələntərli məruzədə toxunulan məsələlər barədə fikirlərini bölüşərək, çıxışçının yaşlı nəsil yazarların uşaqlara ünvanladıqları əsərlər haqqında dolğun təsəvvürlər yaratmadığını bildirdi. Tənqidçi Əsəd Cahangir məruzənin dəyərli tərəflərini sadaladı və qeyd etdi ki, aparılan təsnifatın sistemli alınmadığını söylədi. Azərbaycan, rus və türk ədəbiyyatlarındakı oxşar cəhətləri qabartdığına görə məruzəni tərifləyən Ə.Cahangir Q.Nəcəfzadənin təbiət fəlsəfəsindən cəmiyyət fəlsəfəsinə keçid məsələsinə toxunduğunu, uşaq ədəbiyyatı problemlərini sistemləşdirdiyini xüsusi qiymətləndirdi.

Yazıçısı, tədqiqatçı-alim Zahid Xəlil uşaq ədəbiyyatının nəşr və yayım problemlərinə toxundu, bu məsələnin həllində Respublika Təhsil Nazirliyi ilə birgə layihələrin gerçəkləşdirilməsinin vacibliyini vurğuladı. Dövri mətbuatda uşaq ədəbiyyatına aid materialların, tənqidi yazıların yoxluğunu təəssüflə bildirən çıxışçı tezliklə bu istiqamətdə ciddi addımların atılmasını arzuladı. Respublika Təhsil Şurasının sədri, professor Əjdər Ağayev uşaq ədəbiyyatının pedaqoji tərəflərinə toxundu, dərsliklərdəki balaca oxuculara ünvanlanmış bədii nəsr və poeziya nümunələrinin səviyyəsindən danışdı. Ə.Ağayev Yazıçılar Birliyində dərsliklərə salınmış uşaq ədəbiyyatı nümunələrinin bədii dəyərini müəyyənləşdirən ekspert şurasının yaradılmasını, uşaqlar üçün nəzərdə tutulmuş kitab, dərgi və qəzetlərin nəşri, həmçinin, yayımı sahəsindəki çətinliklərin tezliklə aradan qaldırılmasından ötrü ciddi işlərin həyata keçirilməsini təklif etdi.

Şair İlyas Tapdıq Yazıçılar Birliyində belə dəyərli müzakirələrin getməsi faydalı saydığını dedi, qaldırılan problemlərin ciddi və böyük olduğunu yaradıcılıq müşavirəsi iştirakçılarının nəzərinə çatdırdı. İ.Tapdıq gənclərin yaratdığı uşaq ədəbiyyatı nümunələrinin təhlil və təbliğə böyük ehtiyacı olduğunu dedi.

"Ədəbiyyat qəzeti"nin baş redaktoru, şair Ayaz Vəfalı qeyd etdi ki, məruzə ətrafında müzakirələrdə bir sıra hallarda təmkinli fikir mübadiləsi əvəzinə, təəssüf ki, əsəbi inkarçılıq məqamları da oldu. Ümumiyyətlə bu səpkili tədbirlərdə bəzi çıxışçılar məruzəçidən mövzunu məhz özlərinin istədikləri kimi işıqlandırmağı tələb edirlər. Ancaq daha münasibi odur ki, birinci növbədə **nə** və **necə** deyildiyi müzakirə obyekti ola.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasını əməkdaşı Sevil Əhmədova kitabxana və kitab nəşri ilə bağlı problemlərə toxunaraq uşaq ədəbiyyatının planlı nəşrinin aktuallığını göstərdi. Kitabxananın yazıçı və oxucu arasında körpüyə bənzədən çıxışçı yeni kitabların yayımı, balaca mütaliəçilərə vaxtında çatdırılması məsələsini də xüsusi qabartdı. Şair Sərvaz Hüseynoğlu uşaq ədəbiyyatına dair dərslik və müntəxəbatlardakı bədii nümunələrin səviyyəsinin çox zaman zəif olduğunu yada saldı, belə ciddi problemə xüsusi diqqət vacibliyini bildirdi.

Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri, yazıçı-tənqidçi Aydın Xan (Əbilov) uşaqlara ünvanlanmış bədii əsərlərin zamanın tələblərinə cavab vermədiyini, mütaliəyə meylin az olduğu bir vaxtda ən yeni texnologiyalardan yararlanaraq, kiçik və orta yaşlı sənətsevərləri maraqlandıra biləcək formada ədəbi nümunələrin yaradılması probleminə toxundu. Gənc yazar Sevinc Nuruqızı uşaq ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığına az diqqət ayırdığına görə çıxışçını — Q.Nəcəfzadəni tənqid etdi. Təsadüfi müəlliflərin yaradıcılığındakı şerləri uşaq ədəbiyyatı adı altında tərifləməyin qəti əleyhinə olduğunu söyləyən S.Nuruqızı dövrümüzdə tək-tük yazarların bu istiqamətdə yazıb-yaratdığını bildirdi.

Sonda Q.Nəcəfzadə məruzəsində yalnız bədiiliyi əsas götürdüyünü vurğuladı, ona ünvanlanmış iradları qəbul etmədiyini söylədi.

Hazırladı **A.Əhmədoğlu**

Müasir uşaq ədəbiyyatının problemləri

Qəşəm Nəcəfzadə

Poeziya zamanı bir an ayaq saxladığı yerdir. Poeziya zamanı bizə hiss elətdirən Allah möcüzəsidir. Məncə, zamanı ən çox uşaqlar hiss eləyirlər.

Uşaqlar dünyanın ilk şeridir. Dünyanın ilk şeri olduqları üçün də dünyanı yaxşı duyurlar. Məsələn, biz ağacdan pəncərə düzəltmək istəyirik, onlarsa ağacın budağından yelləncək asmaq fikirindədirlər.

Uşaq atasından soruşur:

— Dənizi kim qazıb, gəmilərin ayağı yerə çatırmı?

Deməк, uşaq dünyanın heyrətidir. Uşağın heyrətisə onun şeridir. Demək, uşaq şeri uşaqlara dünyanı necə göstərməyimiz haqda deyil, onların dünyanı necə görmələri barədədir.

Təəssüflər olsun ki, çox zaman biz uşaq düşüncələrinə, duyğularına öz böyük fikirlərimizi, nitqimizi, dilimizi pərçim eləmişik. Uşaqları böyük kimi danışdırmışıq. Uşaq böyük kimi düşünəndə ölür. Beləliklə, bu günkü uşaq şerimizin fəlsəfəsi çatmır.

Uşaq şerində əsas meyarlardan biri dil məsələsidir. Şerin dili yumşaq və həlim olmalıdır. Şer uşağın dilində rahat nəfəs almalıdır. Nizamidən bu günə qədər bütün ədəbi məqamlarda fikir aydınlığı, sözün semantik mənasına, təfəkkür çevikliyinə dilin daxilinə nüfuz etmək əsas məqsəd olub. Nizami heç bir əsərini uşaqlar üçün yazmayıb. Sadəcə olaraq Nizaminin dövründə və sonralar da yazılan əsərləri uşaqların yaş mərhələlərinə görə müəllimlər quruplaşdırıblar və bununla dərsliklər, məktəblər, qiraətxanalar yaranıb. Kim deyə bilər ki, Ənvər Məmmədxanlının "Buz heykəl" hekayəsi ancaq uşaqlar üçündür və ya əksinə. Kim deyə bilər ki, "Od tutub qırmızı atəşlə yenə yandı üfüq" şeri ancaq böyüklər üçündü və ya əksinə. Kim deyə bilər ki, M.Cəlilin "Saqqallı uşaq", "Poçt qutusu", "Pirverlinin xoruzu", A.Şaiqin "Məktub yetişmədi" hekayələri ancaq böyüklər üçündür və ya əksinə. Demək, uşaq və böyük ədəbiyyatı bölümü ən çox pedaqoji termindir. Və bu gün uşaq ədəbiyyatının əsas problemlərindən biri də böyük və uşaq ədəbiyyatına kəskin fərq qoymağımızdı.

Uşaqlar ilk dəfə mənsub olduğu xalqın dilini onun ədəbiyyatı vasitəsi ilə daha mükəmməl öyrənir. Şübhəsiz ki, dişləri çıxmayan körpə çörək yeyə bilmədiyi kimi, təfəkkürü formalaşmayan uşaq da dediyi sözlərin mənasını öyrənə bilməyəcək. Çünki ona ən əvvəl ılıq, yumşaq, aydın tələffüz olunan sözlər, bir növ təfəkkür lazımdır. Təfəkkürü isə dil yetişdirir. Məhz M.Ə.Sabir müəllim olduğu üçün "Uşaq və buz" şerini çox aydın, sadə və mənalı həm də əruz vəznində yazmışdır. A.Şaiq A.Səhhət, R.Əfəndiyev, C.Cəbrayılbəyli məktəbdarlıqla məşğul olduqlarına görə onların uşaq şerlərinin dili sadə və aydındır. Bir sözlə, uşaq ədəbiyyatı ilə məşğul olan şairin pedaqoji təhsili olması vacibdir.

XIX əsrin sonlarında, xüsusən "Əkinçi" qəzetinin nəşrindən sonra yeni ictimai fikrin, habelə uşaqların bədii dünya görüşünün formalaşması üçün yeni yollar açıldı. S.Ə.Şirvanin "Rəbiül-Ətfal", "Təcül-Kütüb", Çerneyayevsinin Vəlibəyovla birlikdə hazırladıqları "Vətən dili" R.B.Əfəndiyevin "Uşaq baxçası" A.Şaiqin "Gülzar", "Milli qiraət kitabı", Uşaq gözlüyü, A.Səhhətin "Türk ədəbiyyatına ilk qədəm", Ağazadənin "Məktəb məcmuəsi", F.Köçərlinin "Balalara hədiyyə" dərslikləri yarandı və bütün bu dərsliklər Azərbaycan pedaqoji tarixinin əsası olaraq, ictimai fikrimizin formalaşmasında, dilimizin ərəb və fars tərkiblərindən təmizlənməsində mühüm rol oynamış oldu.

1906-cı ildə müəllimlərin birinci qurultayından sonra məktəblərimiz üçün "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları nəşrə başladı. N.Nərimanovun S.M.Qənizadənin S.S.Axundovun, A.Şaiqin, A.Səhhətin, M.Mahmudbəyovun yaxından köməkliyi ilə bu jurnallar balalarımıza dilimizi, mədəniyyətimizi mənimsədilməsi yolunda məşəl oldu. Şübhəsiz ki, bu jurnallarda uşaqların dərk edə biləcəyi və öyrənəcəyi çox maraqlı şerlər, hekayələr və nağıllar çap olunurdu. "Uşaq və buz", "Keçi", "Gəl, gəl a yaz günləri", "Can gülüm, can, can", "Dovşan", "Duma", "Vətən" və başqa məşhur şerlər bu dövrlərə təsadüf edir. A.Şaiqin, A.Səhhətin, Sabirin, M.Mahmudbəyovun uşaq şer yaradıcılığında ən başlıca uğurları onda idik i, onlar xalqın içərisində məşhur olan və ən çox sevilən mahnı ritmləri üzərində yazıb yaradırdılar. Bununla onlar öz şerlərini xalqın ruhuna yaxınlaşdırır və bununla da xalq öz içindən çıxan şeri asan əzbərləyir və heç zaman da unutmurdu. A.Səhhət, A.Şaiq və Sabir də bu keyfiyyətlər fitri istedad olmaqla bərabər həm də bir pedaqoji ustalıq idi.

Görkəmli şair Çukovski qeyd edirdi ki, uşaqlar ilk şer təssüratlarını anaların onlara beşik nəğmələri və başqa bu cür nəğmələr oxuduğu südəmər yaş dövründə alırlar.

Laylay dedim ucadan,
Ünüm çıxdı bacadan,
Tanrı səni saxlasın,
Çiçəkdən, qızılcadan,
Balam layla, ay layla,
Günüm layla, a layla.

Burdakı ritm xalqın özünün təfəkküründən gəlir. Ona görə öyrənilməsi, su içmək qədər asandı. "Ç"səslərinin alleterasiyası şerin bədii gücünü artırır, dil, nitq, təfəkkür məsələləri oxucu və dinləyici tərəfindən asan qavranılır.

Abbas Səhhət də "Quşlar" şerində sanamalar, yəni təkrarlamələr janrından istifadə etmişdir:

Quşlar, quşlar, a quşlar...

və yaxud A.Şaiqin "Dovşan" şeri:

Dovşan, dovşan, a dovşan...

Görürsünüzmü, hər iki şer eyni mənbədəndir, yəni xalqın yaddaşındandır, sadəcə oyadılıb, dilə gətirilib. A.Şairin başqa bir şerinə fikir verək:

Bülbül oxur yuvada,
Can gülüm, can, can.
qanad çalır havada,
can gülüm, can, can.

Bu şer həm sanamalara, həm də xalq havalarının intonasiyasına yükləndiyi üçün gözəldir və həmişə yaşayırdır.

"Dovşan", "Keçi" və "Cücələrim" şerlərində də sayaçı sözlərindən, təkrirlərdən, apofora və epiforalardan məharətlə istifadə olunur.

Cip-cip, cücələrim
Tükü ipək cücələrim.

Cücələr həm çağrılır, həm də sananır.

"Gəl, gəl, a yaz günləri"
(Sanki uşaq əllərini yelləyir)
İlin əziz günləri,
dağda ərit qarları,
(Əlini bu tərəfə əyir)
bağda ərit qarları
(İndi də bu tərəfə əyir)...

Bu şerin daxilindən ritm xalq havasıdır. Ona görə də klassiklərimiz xalq poeziyasına və təfəkkürünə fitri və ağıllı şəkildə söykənmişdir.

Rəşid bəy Əfəndiyevin "Durna" şerinə fikir verin:

Ay havadan uçan durna,
Bizi qoyub qaçan durna.
Get, xoş gəldin, səfa gəldin,
Gələcəksən haçan durna?

Nə qədər axıcı, səlis və aydındır. Bu şer uşaqlara ana dilini asanlıqla öyrədir.

R.B.Əfəndiyevin başqa bir şeri:

Yaz gələndə yağar yağış,
Otlar uzanar bir qarış,
Qaranquş eylər sifariş:
Mən sizə qonaq gələcəm,
Olsun ki, sabah gələcəm.

Bu şer:

Piyalələr irəfdədir,
hər biri bir tərəfdədir,
Görməmişəm bir həftədir,
Yar bizə qonaq gələcək,
Olsun ki, sabah gələcək

şerinin melodiyası əsasında yaradılıb özü də bilərəkdən, şair özü belə yazıb. Əsərini əbədiyyətə, xalqın qan yaddaşına etibar eləyib.

Bu misalları ona görə çəkirəm ki, bu günkü uşaq şerimiz xalqdan xaqın melodiya və intonasiyadan uzaq düşüb.

Yenə də Çukovski yazır: Çoxlu uğursuzluqdan və tərəddüddən sonra mən belə qənaətə gəldim ki, bütün yazıçılar üçün, istər zəif olsun, istərsə güclü yeganə kompas xalqın poeziyasıdır.

S.Ə.Şirvani, F.Köçərli A.Səhhət, C.Məmmədquluzadə M.Mahmudbəyov. R.Əfəndiyev, Hüseyn Cavid S.M.Qənizadə kimi sənətkarlarımız mənəvi dəyərlərə əsaslanan, xalqın poetik yaddaşına söykənən dilinə, nitqinə rahatlıq verən milli dərsliklərimizin əsasını qoymuşlar və təəssüflər olsun ki, bu milli mənəvi dəyərlər bolşevik süngülərinə taxıldı. Gözəl şairimiz M.Müşfiq ilk şerlər kitabının adını məcburən pambıq qoydu. Neftə, rusiyanın rəmzi olan qırmızı traktora şerlər qoşuldu. Süni vətənpərvərlik uşaqların dilinə nitqinə zorla pərçim edildi. Elə pərçim edildi ki, oğlu general Qəzənfər Musabəyovun üzünə durub — sən vətən xaininsən dedi.

Bu gün üstümüzdən Sovet ədəbiyyatı terminini götürmüşüksə hələ də onun qalıqları ilə yaşamaqdayıq. Dünyada ən pis şey qalıqlarla yaşamaqdır.

Ancaq mən uşaq ədəbiyyatımızın bu gününə və gələcəyinə böyük ümidlə baxıram. Çünki bizim söykənməyə, asaslanmağa, öyrənməyə klassik uşaq ədəbiyyatımız, ən başlıcası uşaq folklorumuz var.

Bundan əlavə bizim görkəmli sənətkarlarımız S.Vurğun, R.Rza, S.Rəhimov, M.İbrahimov, İlyas Əfəndiyev, M.Dilbazi, N.Rəfibəyli, M.Seyidzadə, Ə.Cəmil, M.Rzaquluzadə, Ə.Məmmədxanlı, Ə.Əhmədova, Ə.Cəfərzadə, İ.Coşqun, Ə.Kərim, M.Cəlal T.Bayram, H.Ziya, Ə.Qasımov, E.Baxış, İsi Məlikzadə kimi və görkəmli sənətkarlarımız elə bir uşaq ədəbi irsi qoyub getmişlər ki, onların əsərlərinə könül söykəməklə, folkloru bilməklə uşaq ədəbiyyatımızın taleyini müəyyənləşdirmək olar. Bu ədəbi nəsillə yanaşı B.Vahabzadə Elçin, Anar, H.Abbaszadə, N.Xəzri, Q.İlkin, F.Sadıq, A.Vəfalı, F.Qoca, İ.Tapdıq, M.Arif, N.Həsənzadə, Ə.Əylisli, Qabil, V.Babanlı, X.Əlibəyli M.İsmayıl, M.Aslan, Z.Xəlil, Ə.Səmədli, C.Əlioğlu, Qərib Mehdi kimi sənətkarlarımız həyatlarının müxtlif məqamlarında dəyərli uşaq əsərləri yaratmış və bu gündə bəziləri mütamadi olaraq uşaq ədəbiyyatı ilə məşğuldurlar, müasir uşaq ədəbiyyatını 3 ədəbi növ üzrə uşaq şeri, uşaq nəsri, uşaq ədəbi tənqidi üzrə qruplaşdırmaq olar ki, burda da əsas məsələ kəmiyyət deyil, yəni nə qədər əsər yazılması deyil, başlıca meyar bədiilikdir.

Son 5 ildə yaranan uşaq əsərlərində bəlkə də müharibə şəraitində yaşadığımıza görə publisistika üstünlük təşkil edir. Güllü miqdarda şerlər var ki, təpədən dımağa publisistikadır, özü də zəif publisistika.

Son 5 ildə orta yaş nəslinə mənsub olan Q.İsabəyli, Ə.Quluzadə, R.Yusifoğlu, P.Qəlbinur, V.Vəhmənli, M.Alim, Ə.Əlioğlu. A.Əlizadə, Ş.Xəlilli, Ə.Mədətoğlu Ə.Əsgəroğlu, M.Köhnəqala, A.Şirin, Ə.Ol, A.Cəmil onlardan bir az gənc olan S.Hüseynoğlu S.Babulaoğlu S.Nuruqızı, A.Bünyadzadə, A.Həsənoğlu, Nisə Bəyim, Ə.Salman, Ş.Əbil, Ş.Sahibli, D.Sevgin, E.Atalı, F.Tahirli, F.Balabəyli, M.Mirhəşim oğlu, Ş.Vəfadar, Gülzar İbrahimova son dövr çap olunmuş uşaq kitabları ilə və ya "Göyərçin", "Savalan", "Günəş", "Elli" jurnallarında, "Cik-cik", "Elin gücü", "Tumurcuq" və digər uşaq mətbuat orqanlarında həmçinin "Ulduz" jurnalında, "Ədalət", "Yeni Azərbaycan" və "Kaspi" qəzetlərində çap olunan şerlər ilə ədəbi ictimaiyyətin nəzər-diqqətini cəlb etmişlər.

Tanınmış şair, füzulişünas alim Ayaz Vəfalı həm böyüklər, həm də uşaqlar üçün maraqlı şerlər müəllifidir. Uşaq dünyasını dərindən duyan şair təkcə uşaqların iç dünyalarını deyil, həm də ata-anaların övladlara ölən sonsuz sevgisini, çox səmimi şəkildə tərənnüm edir.

Şair qızlarına müraciətlə:

Nə qədər görpəsiniz,
Yazım nə sözünüz var.
Böyük qız olanda siz,
Sonra yadımdan çıxar

deyərək bütün ataların hiss və duyğularını məhəbbətlə qələmə alır.

İstedadlı şair və naşir Qəşəm İsabəyli son 5 ildə uşaqlar üçün "Ay gülək, nə əsirsən?" yeni şerlər kitabını və "Ü" nağıl povestini təkrar nəşr etdirib. Eyni zamanda müəllif Ulduz jurnalı və uşaq mətbuat orqanlarında "Elnur Əkil və onların başına gələnlər" nağılını və uşaq həyatından bəhs edən müxtəlif səpkili şerləri balaca oxucuların ixtiyarına verib. Sevindirici haldır ki, Qəşəm İsabəyli bir naşir kimi "Şirvannəşr" nəşriyyatında silsilə uşaq ədəbiyyatı çap edərək, balaca oxucuları sevindirib. "Cik-cik" uşaq qəzeti də onun rəhbərliyi altında öz səhifələrində görpə fidanlara hər ay geniş yer ayırır. Tədqiqatçı alim, professor, gözəl şair, uşaq ədəbiyyatının yorulmaz təbliğatçısı Zahid Xəlil ötən 5 il ərzində həm televiziyada, həm pedaqoji fəaliyyətində uşaq ədəbiyyatının ən gözəl incilərini üzə çıxarıb. 2002-ci ildə "Dünyanın balaca nağılları" kitabı çap olunub. Eyni zamanda Füzuli Əsgərli 2003-cü ildə Zahid Xəlilin yaradıcılığı ilə bağlı yazdığı "Sənətkarın uşaq dünyası" kitabını çap etdirərək, sənətsevərlərin ixtiyarına verib. Onu da deyim ki, Zahid Xəlilin yaxından köməkliyi nəticəsində "Elmin gücü" adlı bir qəzet çıxır ki, burada da orta məktəb müəllim və şagirdlərinə metodiki kömək vasitəsi kimi Zahid müəllim dünya ədəbiyyatından seçmələr verir. Zahid müəllim hal-hazırda "Orxan və dostları" romanı üzərində işləyir.

"Göyərçin" jurnalının baş redaktoru, istedadlı şair və alim Rafiq Yusifoğlu son 5 ildə çox gərgin və məhsuldar yaradıcılıq yolu keçmişdir. Ali və Orta ixtisas məktəbləri üçün uşaq ədəbiyyatı dərsliyi, uşaqlar və böyüklər üçün bir neçə şer və nəsr kitabları nəşr etdirib. "Söz çəmənı" kitabında sait və samitlərə, nitq hissələrinə, cümlə üzvlərinə, durğu işarələrinə, "Günlərimiz, aylarımız" kitabında günlərə, aylara yazdığı şerlər ibtidai sinif şagirdlərinin həm Azərbaycan dilinin qrammatikasının, həm də əlamətdar gün və ayların öyrənilməsi üçün ədəbi-bədii vasitədir. "Sual" şerində olduğu kimi:

Yorulmur heç soruşur,
deyingən bir qarı tək
Ona cavab verməyə
Sözlər tapasan gərək.

Sual işarəsinin forması, daxili əlamət və keyfiyyətləri, ədəbi-bədii lövhələrlə uşağa çatdırılır. Uşağın idrak və təfəkkürünü, mənimsə qabiliyyətini surətləndirir. Əslində bu cür əlamətlərlə tanıma və qavrama uşaq şerlərinin mayası R.Rzadan gəlir. Bu da təbii haldır. R.Rzanın "Şanapipik" şerinə fikir verək:

Şanapipik, şanapipik
Alabəzək, qara kirpik
Üstü-başı zolaq-zolaq
Balacaboy, nəzik ayaq.

Əlli yaşını yenicə ötmüş istedadlı şair Ələmdar Quluzadə həm uşaqlar, həm də böyüklər üçün maraqlı şerlər yazır. Son dövrdə onun "Göyərçin", "Günəş" jurnallarında orijinal uşaq şerləri dərc edilib. Ə.Quluzadə uşaq xarakterini, onun daxili düşüncələrini dərindən bilən şairdir. Aşağıdakı şerində maraqlı bir məqamı nəzərinizə çatdırmaq istəyirəm.

Mağazaya gəldi Gülər:
Əmi mənə çörək ver,
Bir də dəftər.
— Buyur, qızım.
— Bəs saqqızım?
— Saqqız üçün
pul qalmadı.
— Əmi, deyən düz olmadı.
Qoy çörək də,
qoy dəftər də burda qalsın.
İndi elə hesabla ki
saqqız üçün xırda qalsın.

Evlərinin yanındakı dükanlara gedən uşaqların həmişə gözü xərclənən puldan geri qayıdan xırdadadır. Bu təbii, poetik məqamı şairin alıcı gözləri göydə tutub.

Xalq yazıçısı Elçin "Azərbaycan uşaq ədəbiyyatı" məqaləsində yazır: Zaqreb Simpoziumunda Rumun yazıçısı Tiberd Utaq bir hadisə danışdı. Mənim dostumun qızı televiziya ilə göstərilən olimpia oyunlarına baxırdı. Gimnast Konsilyaçinin çıxışından sonra qız atasına dedi: "Ata, bu qız gözəl quş ola bilərdi"... Elçin elə oradaca haqlı olaraq qeyd edir ki, məncə, bu gözəl misaldır. Bu kiçik və işıqlı bənzətmə bir daha sübut edir ki, xüsusən, uşaq "ədəbiyyatının estetik simasından çox şey asılıdır".

Həmin uşağın təfəkkür qanadları daim əşyalar üzərində qanad çalır, nəfəs alır, dəyişir, kiçilir, həm də böyüyür.

Sevimli şairimiz Fikrət Sadığın uşaq yaradıcılığı öz təbiiliyi ilə seçilir. Onun "Şerli Əlifba" kitabı balaca oxucular üçün çox gözəl əyani vəsaitidir. F.Sadığın şerlərindəki sonluqlar uşağın başına gələn hadisənin ümumi nəticəsindən doğur:

— Bəs bu nədir?
— Bu quşdur.
— Niyə bura qonmuşdur?
— Dən yeyirdi
— Dən nədir?
— Mən də görə bilmədim
quş hamısını dənlədi.

Burada ədəbi fakt, ədəbi hadisə var. Ala dağdan, qara dağdan gələn söz yığını yoxdur.

Bugünkü uşaq şerimizdə göz acışdıran yalandan uşaq güldürmək, sevindirmək istəyi kimi işıldayan ifadələr, tükürpədici pafos, uşaqları böyük kimi danışdırmaq, yalançı vətənpərvərlik duyğuları süni şəkildə baş alıb gedir. Uşaqların dünyagörüşünə, duyğu və düşüncələrinə sünü masqa taxmaq, onları daim odlu-alovlu, qalib göstərmək özündən adam düzəltmək kimi şeylərdir. Uşaq həmişə beş ala bilmr, iki alan bir uşağın kədəri, qorxaq bir uşağın həyəcanı daha təbiidir, daha gur-guruldayan, nər-nərildəyən şerlərin məzmunu məsum uşaqların üzünə taxılmış masqadır. Əslində bu masqa müəllifin özüdür.

Təsadüfi deyil ki, xalq şairi R.Rza 1967-ci ildə çap olunmuş "Mənim fikrimcə" kitabında haqlı olaraq yazır ki, həyat hadisələrin nə şəraitdə, nə zaman ortaya çıxması haqqında son dərəcə inandırıcı və gözəl material verir. R.Rza haqlıdır. Həyatın özünü şerə gətirmək lazımdır. Ona əl vurdunsa, uçurub-dağıtdınsa, daha heç nə.

Özünəməxsus ədəbi dəstixətti olan Sərvaz Hüseynoğlu son illər uşaq şerimizin maraqlı nümunələrini yaratmışdır. Onun uşaq şerləri sadə, oynaq, lakonik yığcam və mənalıdır. Sərvaz uşaq aləminə enməyi, onunla qaynayıb qarışmağı, düşündüklərini və müşahidə etdiklərini uşaqların zövqü, təfəkkürü boyuna ustalıqla biçməyi bacaran şairlərimizdəndir. O uşaq şerlərində rəsmə, peyzaja, görüntüyə daha çox diqqət yetirir. Bu mənada onun uşaq şerləri tablonu xatırladır:

Tamaşadı, baxanların
gözü doymayır
dəcəl dodlu özü çalıb,
özü oynayır.

Ədalət Əsgəroğlunun son illər çap olunmuş "Böyürtkən kolu", "Elşadın dəcəlliyi", "Aytəkin və Günəş", "Xəzər", "Zirvələr" və başqa şerləri müasir uşağın estetik zövqünün məhz təbiət parametrləri ilə üzvü surətdə bağlanmasını göstərir.

"Böyürtkən kolu" şerində İftixar böyürtkən yemək istəyir. Elə birini yeyən kimi tikanlar onu cırmaqlayır. İftixar ağlasa da, qışqırsa da, tikanlar onu buraxmır, nəticədə də köynəyi cırılır:

Dartındı, köynəyini,
Cırcı düz ortasından.
Tək bircə böyürtkanın,
Hayıfını çıxdı ondan.

Məncə, maraqlı lövhədir.

Sevinc Nuruqızı son illərdə çıxan 2 toplusu, "çərpələng, sarı qız", "Düz və vız" kitabları ilə balaca oxucularını sevindirib. Məncə Sevinc 2 kitabı çıxmasına baxmayaraq hələ də çox şerlərində 70-80 illərə mənsub olan əlamətlərlə əlləşir. Bəzən elə naşılıq edir ki, təbiilik tamamilə pozulur. "Alma ağacı" şerinə fikr verək:

Kamran ərklə söylədi
Alma ağacı salam.
Küskün ağac dilləndi
Yox halım, salam alım.

Əvvəla, Kamranla ağac arasında olan bu cür münasibət qeyri səmimidir. Uşaq ağacla belə danışmaz və ağac da ona bu cür cavab verməz. Bu şerdəki metofora uğursuzdur. İkincisi, müsbət keyfiyyətləri zorla obrazın canına doldurmaq olmaz.

Bu il Dayandur Sevginin "Mən bilmirəm ayrılığın yolunu" adlı yeni şerlər kitabı işıq üzü görüb. Topluya şairin uşaqlar üçün yazdığı şerləri də daxil edilib. Bədii obrazlığa, yüksək əxlaqi keyfiyyətlərə, zəngin dilə malik olan bu şerlər ata-övlad məhəbbətini səmimi şəkildə oxucuya çatdırır.

Ay nurundan pay alıb,
Ay kimi təmiz balam!
Saçları xurmayıdı,
Gözləri dəniz balam!

Etiraf etməliyik ki, uşaq şeri yazmaq çox çətindir. Belinski deyirdi ki, uşaq şairi olmaq lazım deyil, uşaq şairi doğulmaq lazımdı. Vaxtı ilə uşaq olmaq çətindir deyən tənqidçi Allo Marçenko ilə mübahisə edən S.Mixalkov, M.Trilyayeva və L.Razqon birlikdə məqalə yazaraq deyirdilər ki, Allo Marçenko ilə razılaşmaq olmaz. Uşaq olmaq, xoşbəxt olmaq, şən olmaq, şirin olmaq deməkdir.

Xalq yazıçısı Elçin "Azərbaycan uşaq ədəbiyyatı" məqaləsində üçlüyün arqumentlərinə, qarşı öz haqlı sualını qoyur: "Məgər uşaq çətinliyi məfhumunun özündə uşaq xoşbəxtliyi yoxdurmu? Bəli uşaq xoşbəxt olmaqla, şən olmaqla, şirin olmaqla bərabər, həm də çətindir".

Yenə də Elçinin haqlı sözü: "Uşaqlar üçün yazmaq da çətindir və Elçinin haqlı nəticəsi: lakin bədii çətinlik olmayan yerdə bədii qələbə də yoxdur".

Ötən beş ildə yaranan uşaq ədəbiyyatımıza nəzər salanda aydın bir həqiqəti olduğu kimi dərk edirəm. Uşaq ədəbiyyatı yaranır. Amma XX əsrin əvvəlində yaranan xalq təfəkkürünə söykənən ədəbiyyata hələ çata bilmr. Elə bil ki, uşaq şerimizin əsas hissəsi on illiklər ərzində hadisələri eyni cür təqlid edir, obraza eyni əlamət və xüsusiyyət verir. Elə bil 90-cı illərin uşaqları 70-80-ci illərin uşaqlarıdır. Uşağın topu, ata-anası, bacı-qardaşı, dağ-daş, ot-çiçək, ay günəş, it-pişik və ətrafımızı bürüyən əşya və canlılar uşaqlara eyni üslubda təsir edir və uşaqlara da onlara eyni prizmadan münasibət göstərirlər, elə bil heç nə dəyişmir. Görəsən uşaqlar dünyaya onilliklər boyu eyni baxışlarlamı baxacaqlar? Şübhəsiz, uşaqlar elektron, internet zamanında yaşayırlar. Elə bil şerimizdəki uşaqların təfəkkür hərəkəti hələ sabitdir. Onlar hələ dünyaya çıxmağa qorxur. Şairlərimiz onların iç dünyalarına, düşüncələrinə ictimai sosial məzmun verməlidir. Mənə elə gəlir ki, bu məsələ gecikir. Görkəmli türk şairi İsmayıl Uyaroğlunun neçə illər bundan qabaq yazdığı uşaq şerlərinə diqqət yetirsək bu məzmunu aydın görərik:

Qar qardaş,
Atamın pulu yox
Mənə palto ala...
Nə olar, məni anla.

Artıq bu şerdə sosial problem səciyyə daşıyır. Uşaq hiddətlənir. Məgər bizdə hiddətlənən kasıb uşaq yoxdurmu?

Yenə həmin şerdən:

Mənim üçün doğ, günəş,
Küçəyə çıxarmır anam məni
Sən olmasan.

Uşağın acı taleyi artıq böyük poeziya nümunəsidir. Bəzən bizim uşaq şerlərimizin əksəriyyətində zəif və bayağı təsvirlərlə xoşbəxt uşaq obrazı yaradırlar. Yuxarıda göstərdiyimiz şair isə kasıb bir uşağın timsalında poeziya nümunəsini ortaya qoyur. Ədəbiyyatımız üçün, bizə ikincisi lazımdır. Bəzən bizdə kütləvi şəkildə qorxmaz, döyüşkən, hər şeydən başı çıxan kollektiv uşaq obrazları bu gün də Qarabağı almağa hazırdılar. Hələlik bu fikir uşağın öz yaşının düşüncəsi deyil. Bu yaşlı bir şairin zorla uşağın qəlbinə, dilinə pərçim elədiyi və guya bununla da cəmiyyətdə vətənpərik işinin çox mütəşəkkil getdiyini göstərmək faktıdır.

Murad Köhnəqalanın 10 avqust 2001-ci il tarixdə "Yeni Azərbaycan" qəzetinin ədəbiyyat əlavəsində 3 uşaq şeri dərc olunub. Bu şerlərin gözəlliyi və orijinallığı arasındadır ki, xalq ruhunda yazılıb. Murad burada qeyri adi bir şey kəşf eləməyib. Sadəcə olaraq folklordan bəhrələnib:

Yatanda tərli oğlum,
kitab dəftərli oğlum,
Sabah-sabah durubdu,
vərəqlərin cırıbdı.
Lolay lay, Laay lay
di yat dana
İndicə səni qaldırıb yerə vuracam
Yoo, Yoo,
Sənnən döyüləm, sənnən döyüləm,
Pişik göynən gedir, onnanam,
Ay pişik, get balam yatsın.

Muraddan daha fərqli üslubu olan gənc şair Səlim Babullaoğlunun 2002-ci ildə "Yeni Azərbaycan" qəzetinin ədəbiyyat buraxılışında dərc edilmiş "Oğlumla söhbət" şeri müasir uşaq şerimizdə tamamilə ayrı bir xətdir. Deyək ki, Murad birbaşa xalqdan öyrəndi. S.Babulloğlunun şeri isə xalqdan bəhrələnməklə bərabər, səlis Azərbaycan dilində bizimlə danışan ya yeni Avropa düşüncəsidir, ya da min il bundan qabaqkı, öz düşüncəmiz, daha dəqiq desəm Dədə Qorqud zamanın bədii içidir:

— Sən kimsən?
— Sənin atan.
— Bəs Fəridin atası kimdi?
— Yoxdu.
— Nədən?..
— ...

Bu şer də H.Cavidin "Məktəbli qız" şeri kimi qədimdir.Qədim olduğu üçün müasirdir. Keçmiş olduğu üçün gələcəkdir.

Yenə Səlimin şerində:

— Ata, Allah kimdi?
— O səni, ananı, babanı,
nənəni, hamını yaradıb
— Səni də?
— ...

Və yaxud:

— Onlar nə edirlər, ata?
— Daş yığırlar.
— Niyə?
— Bir-birinə vuracaqlar.
— Niyə?
— Düşməndirlər.
— Niyə?
— Bir-birini sevmirlər
— Niyə?
— ...

Əslində uşağın suallarının hamsı ən tutarlı cavablardır. Atanın cavabı isə sual... Uşağın suallarında müasir sivilizasiya yerləşib.

Ötən beş ildə uşaq nəsri və dramaturgiyası da xeyli inkişaf yolu keçib. Hüseyn Abbaszadənin İsmayıl Vəliyevin, Əli Səmədlinin maraqlı kitabları, dövrü mətbuatda isə hekayə və nağılları çap olunub.

Bu dövrdə ən məhsuldar nasirimiz Əli Səmədlinin "70 ilin sevinci", "Çinarlı şəhərim" kitablarını çox nəfis şəkildə nəşr etdirib, körpə fidanlarımızın ixtiyarına vermişdir. Bundan əlavə, Əli Səmədli dövrü mətbuatda uşaq hekayələri, nağılları və publisistik yazıları ilə çıxış edib. Uşaq ədəbiyyatımızın təbliğ olunmasında əlindən gələni əsirgəməyib. Qurultayqabağı uşaq kitabxanalarında bir sıra tədbirlər keçirib və mən də xoşbəxtəm ki, həmin görüşlərin iştirakçısı olmuşam.

İstedadlı yazıçı dramaturq Aygün Həsənoğlunun ötən beş il ərzində "Şəkər villası" qəzetində "Küsəyən dişlər", "İki damla yaş", "Şar" nağılları dərc edilib. "Oxu bülbül və yaxud hər kəsin öz nəğməsi" gənc tamaşaçılar teatrında səhnəyə qoyulub. Bu dövr ərzində Aygün xanım "Səməni", "Xallı kəpənək", "Qara sandıq" dram əsərlərini yazıb. "Səməni" dramını səhnələşdirilməsi üçün Gənc Tamaşaçılar Teatrına təqdim edib. Aygün Həsənoğlunun nağıl və hekayələrində, dramlarında ədəbi-bədii sujetlər, orijinal uşaq taleləri diqqət çəkir.

Aygünün başqa bir yaşıdı Aygün Bünyadzadə özünəməxsus nağılları, tərcümələri ilə xeyli iş görüb. Tofik Mahmud adına mükafata layiq görülüb. Aygün "Şəkər villası" qəzetində "Günəş", "Göyərçin", "Elli" jurnallarında ədəbi-bədii uşaq əsərləri ilə fəal çıxış edərək, artıq öz imzasını istedadlı bir naksir kimi təsdiqləyib. "Qar dənəcikləri necə yarandı", "küçüklərin macəraları", necə oldu ki, fəsillər meydana gəldi, dünyanın səfil uşaqlarına həsr olunmuş "küçə fənəri" bu illər ərzində balaca oxucuların ixtiyarına verilib.

İstedadlı yazıçı Şəlalə Əbil son üç ildə "Sonradan sonra" və "Teorem" kitablarını çap etdirməklə yanaşı, "Ulduz", "Azərbaycan" jurnallarında, "Ədəbiyyat qəzeti", "Ədalət", "Yeni Azərbaycan" qəzetlərində maraqlı hekayələri ilə çıxış etdi. Nasirin yaradıcılığında qadın və uşaq obrazı yeni estetik dəyərlərlə üzə çıxdı. "Ala çatı" hekayəsində dişi qaşınanda həmişə bələyinin bağını dişinə çəkməyə adət etmiş körpə bir gün ala çatıya oxşayan ilanı dişinə aparıb sıxır və ilan onu çalır. Beləliklə, həyatla uşağın ilk tanışlığı başlayır. "İtki" hekayəsində itən nədir? Atasının iş yerinə gedən Murad əlini atasının işlətdiyi kraskaya bulaşdırır ki, qonşusu Kərimi heyrətləndirsin. Lakin alləyə pul lazımdır. Muradın atası başıdaz xozeyinə boyun bükərək əvvəlcədən pul verməsini xahiş edir. Xozeyinsə kobuddur. Elə bu an Murad əlində atasının əlinin əsdiyini və əsə-əsə kiçildiyini görür. O, dərk edir ki, nəsə itirdi. Ona görə də evə çatan kimi hirslə əlinə yaxdığı kraskanı qopartmağa çalışır.

Təəssüflər olsun ki, müasir ədəbiyyatımızda uşaq ədəbi tənqidi yox dərəcəsindədir.

Bir neçə kəlmə də ibtidai sinif dərsliklərində gedən uşaq əsərləri barədə; ibtidai sinif dərsliklərinə vətənpərvərliyin təbliği xətirinə çox zəif şerlər salınıb. Bu da uşaqlarda rabitəli nitqin inkişafına çox mənfi təsir göstərir. Professor Y.Kərimovun tərtib etdiyi 3-cü sinfin oxu dərsliyində Nizami Paşa Saraclının "Bakı-Təbriz-Ankara" şeri verilib:

Bilir dost, bilir yağı,
durublar sacayağı
Bir-birinin dayağı
Bakı-Təbriz-Ankara.

Burada şagird hansı ədəbi mətləbi anlaya bilər və bu şer şairin öz kitabında olsa yenə başqa məsələ, təəssüflər olsun ki, balalarımızın dərsliyindədir. Bu şerin yerinə publisistik bir yazı olsa daha yaxşıdır, nəinki bu cür mənasız söz yığını.

Y.Kərimovun tərtib etdiyi 2-ci sinfin oxu dərsliyində M.İsmayılın "Dünya bizim evimizdir" şerindəki qafiyəsizliyi görən kimi şagirdlər çaş-baş qalırlar. Böyüyəndə yanlışlıq ömür boyu onları tərk etməyəcək:

Böyüklər, əl-qol (at)mayın,
Xəyanətə yol (aç)mayın,
Siz üstündə (dalaş)mayın,
Dünya bizim evimizdir.

Uşaq dərsliyində hər şey düz olmalıdır.

N.Kazımovun 4-cü sinif üçün tərtib etdiyi dərslikdə Nazir Nəcminin "Qadın əlləri" şeri başdan-ayağa sözçülükdən ibarətdir. Şair qadın əllərinə müraciətlə deyir:

Şimşək olursunuz uca dağlardan,
O vaxtkı daşları endirirsiniz.

Bu, nə deməkdir?

Heç bir fikir bildirməyən bu misralardan şagirdlər görəsən nə anlayırlar? Yenə həmin dərslikdə Eldar İbrahimin "Şəhid nəğmələri" şerində "Ağı deyir neçə səs" misrası uyarında deyil. Səs ağı deməz. Adam ağı deyər. Həmin şerdən başqa bir misal:

Canəzələr yol gedir,
Bir-birindən qüdrətli,
Güclü çiyinlər üstə.

Qüdrət çiyinə şamil edilə bilməz. Bax burda uşaq çaşır, zövqü korlanır, sonradan onun şer zövqünü formalaşdırmaq çətin olur.

İndiki zamanda çox vacib ədəbi sahələrdən olan uşaq ədəbiyyatına göstərilən qayğı yetərincə deyil. Kimdən uşaq şerinin əhvalını xəbər aldım, kefi pozuldu. Qayğısızlıqdan gileyləndi.

Beləliklə, çıxışımın sonunda müasir uşaq ədəbiyyatımızın əsas problemlərini aşağıdakı kimi quruplaşdıra bilərəm:

- Bu günkü uşaq şerimiz xalq ruhundan, xalqın intonasiyasından uzaq düşüb. Uşaq şerimiz folklora qayıtmalıdır. Və təbii şəkildə uşaq düşüncələrinə ictimai-sosial məzmun notları verilməlidir.
- Ən böyük problemlərdən biri də uşaq və böyük ədəbiyyatının arasında kəskin fərq qoyulmasıdır. Bu fərq pedaqoji tərəfi saxlanılmaqla aradan qaldırılmalıdır.
- Bugünkü uşaq şerimizin fəlsəfəsi çatmır.
- Bugünkü uşaq ədəbiyyatımızın dili bərbad vaziyyə'dədir. Ədəbiyyat hər şeydən əv' əl canlı dildən ibarətdir.
- Bugünkü uşaq ədəbiyyatımız folklordan qidalanıb dünyaya çıxmalıdır. Müasir dünyanın məzmununu şirə kimi canına çəkib, canlı danışıq dilində uşaqlara çatdırmalıdır.
- Ən ciddi problemlərdən biri də uşaqları böyük kimi danışdırmaqdır. Uşaq uşaq kimi düşünməlidir.
- Süni vətənpərvərliklə üfürülmüş kütləvi uşaq obrazlarına son qoymaq lazımdır. Uşaq ədəbiyyatımız öz ilkinliyinə, təbiiliyinə qayıtmalıdır.
- Uşaq yazıçısına, ədəbiyyatına xüsusi qayğı olmalıdır.
- Tarixi qəhrəmanlarımız, itirdiyimiz yer-yurd, torpaq, çay, dağ, bir sözlə Dərbənd, Göyçə, Təbriz, Boralı, Qarabağ, Göyçə gölü, Zəngəzur, Qərbi Azərbaycan haqqında, S.Vurğun, R.Rza, Ə.Kərim, İ.Əfəndiyev və başqa sənətkarlarımız haqqında qısa, maraqlı hekayələr yazılmalıdır.
- Əsas problemlərdən biri də oxucu problemidir. Bu gün uşaq mətbuatının orta məktəblərdə oxucusu yoxdursa, deməli biz oxucu yetişdirmirik, deməli, gələcək ədəbiyyatımızı oxuyan olmayacaq. Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır.
- Bizdə uşaq ədəbi tənqidi yoxdur. Alimlərimiz bu sahəyə xüsusi diqqət yetirməlidirlər.
- Uşaq ədəbiyyatının çapı məsələsi hamımızın ürəyini göynədir. Hörmətli Anar müəllim, nə yaxşı ki, Sizin gərgin əməyiniz nəticəsində xalqımızın ən böyük arzusu həyata keçdi. Cənab Prezident İlham Əliyev 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısını təsdiq elədi və nə yaxşı ki, həmin siyahıda uşaq ədəbiyyatına geniş yer verilib. Belə ki, bu ildən balaca oxucularımız, elə böyüklərimiz də A.Səhhətin, A.Şaiqin, Sabirin, S.S.Axundovun seçilmiş əsərlərini və Azərbaycan uşaq antologiyasını 3 cildə oxuya biləcəklər. Məncə uşaq şeri şairin ilhamını əsas göstəricidir. Yalançı pafos, süni qəhrəmanlıq, sözçülük ona yaddır. Böyük poeziyanın əsas təməli uşaq təbəssümünə, uşaq yalvarışına, uşaq təmizliyinə söykənir. Çıxışımı İsmayıl Uyaroğlunun aşağıdakı şeri ilə bitirirəm.

Hər silah ayrı bir səslə partlar:
Tapança: darıı,
Tüfəng: bumm,
Top: gumm,
Bomba: bomm...
Amma öldürdükləri körpələr
harasında olursa dünyanın
Eyni ağrıyla bağırar:
— Ah...

Gəlin bu "ah"ların qeydinə qalaq...